# Salam əsgər



Körpələrimizin ilk sözü, əsgərlərimizinsə son sözü "Vətən" olmalıdır. Biz türkük, türk oğluyuq, Şərəfiyik Vətənin. Şəhidliyi seçirik, Ölüm olsun düşmənin.

Göründüyü kimi, əsgər üçün şəhidlik ölüm deyil, ölümsüzlükdür. O, şəhidliyə bizim oğulları, adi ölümə isə düşməni layiq bilir. Övladı şəhid olan atanın, ananın "Başın sağ olsun, Vətən" deməsini alqışlayır, onların qarşısında baş əyirik:

Şəhid ol, əməlinlə Yaşa, ey türk əsgəri!
Şanınla, şərəfinlə Heyran eylə bəşəri!

Biz, bütün Azərbaycan bəşəriyyəti həmişə Prezidentimiz İlham Heydər oğlu Əliyevlə qürur duyuruq, əsgərlərimizin qabağında baş əyirik.

Qeyrətli Vətən oğulları, Allah həmişə sizə kömək olsun. İnanırıq ki, Vətənin belə dövlət başçısı olan, qeyrətli oğulları olan ölkə heç vaxt basılmaz.

Yaşa Azərbaycan əsgəri!
Bu torpağa gələn olur,
Ömür sürüb gedən olur.
O biləndə nədir Vətən,
Vətən onda Vətən olur.

Qarabağ Azəbaycandır! Azərbaycan əsgəri Ali Baş Komandanın sözünü silahınla, gücünlə, qüdrətinlə Qarabağ dağlarına yazdın. Sənin haqqın hər birimizin qəlbində yaşadacağımız abidəndir. Sənin sevginlə zaman-zaman Qarabağın Azərbaycan olmağın ilə qürur duyacağıq.

Salam, əsgər! Bu söz təkcə mənim deyil, sənin adını, sorağını həmişə uca tutacaq gələn nəsillərin dilindən səslənəcək sitatdır. Bu, həm də sənin şöhrətindir, sənin yenilməzliyindir.

Müzəffər addımlarınla, odlu silahınla düşmənin ölüm tələlərini keçdin. Əzminlə, inamınla ölümsüzlüyünü düşmənə diktə elədin. Qarabağın hər yerində sənin adın bayrağımızla yanaşı dayanacaq. Dalğalanan bayrağımız sənin nəfəsindən, sənin adından güc alacaq.

Salam əsgər, bu əbədi salamı Vətən həmişə sənin üçün deyəcək.

Salam əsgər, yaşa əsgər!

*2021*



***Ramilə***
***GÜLBABA QIZI***

Kredo 2021.- 24 fevral.- S.1.